# Ədəbiyyatşünaslıq elmimizin taleyinə cavabdeh missiyalı alim haqqında söz



**Qəzənfər PAŞAYEV**
*əməkdar elm xadimi*

Onunla iddiasız və təmənnasız yaşamaqda nümunə olan Abbas Zamanovun təmtəraqdan uzaq mənzilində tanış olduq. O gedəndən sonra Abbas müəllim dedi: "Qəzənfər, səni gələcəyin böyük alimi ilə tanış etdim".

Vaxt hiss edilmədən keçdi. O, mənim də üzvü olduğum Dissertasiya Şurasında doktorluq dissertasiyası müdafiə etdi. Az sonra onu Naxçıvan Dövlət Universitetinə rektor təyin etdilər. Ağır vaxtlar idi. O vaxt Naxçıvanın görkəmli alimlərinin çoxu paytaxtda ali məktəblərdə və AMEA-da işləyirdilər. Odur ki, universitetin elmi bazası imkan vermədiyindən Dissertasiya Şurasını Ədəbiyyat və Dilçilik İnstitutlarının, eləcə də AMEA-nın kadrlarından istifadə yolu ilə formalaşdırmaq zorunda qalmışdı.

İsti münasibətlərimiz həmin vaxtdan başladı. Onu ədəbiyyatşünaslıq elmimizə sədaqətlə xidmət edən fədakar alim kimi tanıdım. O, pillə-pillə yüksəldi. Bununla belə, onun ədəbiyyata dərin məhəbbəti azalmadı, daha da artdı. Sevinirdim ki, yüksək vəzifə və rütbələr (rektor, millət vəkili, akademik), həyatın gözqamaşdırıcı, şirnikləndirici keşməkeşləri onu ədəbiyyatımıza xidmətdən yayındıra bilməyib. Kitabları ardıcıl nəşr edildikcə avtoqrafla mənə göndərirdi. Çox böyükhəcmli, çox da sanballı "Ədəbi-tarixi yaddaş və müasirlik" kitabında "Folklorşünaslıq", "Klassik ədəbiyyat", "Tənqid və ədəbiyyatşünaslıq", "Ədəbiyyat nəzəriyyəsi məsələləri", "Elmi-tənqidi əlaqələr" və s. kimi fəsillərin hər biri ayrıca monoqrafiya təsiri bağışlayırdı. Alimin "Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri", Moskvada çap olunan "XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı", eləcə də tədqiqatçıya həsr olunmuş "Ömrün illəri və izləri" kitablarını minnətdarlıqla aldım, oxudum. Mətbuatda "Əbədiliyə aparan yolun yorulmaz yolçusu", "Akademik İsa Həbibbəyliyə açıq məktub", "Akademik İsa Həbibbəyliyə məktub" adlı məqalələrlə çıxış etdim. Məni sözün həqiqi mənasında qürurlandıran İsa müəllimin Misirdə ərəb və ingilis dillərində çap olunan "Çağdaş Azərbaycan ədibi Cəlil Məmmədquluzadə" və Pakistanda urdu dilində nəşr olunan "Görkəmli Azərbaycan mütəfəkkiri Cəlil Məmmədquluzadə" kitabları oldu. Hər iki kitab barədə mətbuatda çıxış etdim. Onu da deyim ki, urdu dilində çıxan kitabla bağlı bəzi məqamları dəqiqləşdirmək üçün Pakistan səfirliyinə müraciət edəndə səfirliyin əməkdaşı cənab Nəzir Əhməd böyük lütfkarlıqla yardım göstərdi. Ədəbiyyatı sevən adam imiş. "Quzu" və "Poçt qutusu" hekayələrindən müəyyən hissəni urduca oxuyaraq ürəkdən güldü.

Yeridir deyim, nəhayət ki, Şərqin qapıları Azərbaycan ədəbiyyatının sütunlarından biri olan Cəlil Məmmədquluzadənin üzünə açıldı və bu missiyanı elmi, biliyi, şəxsiyyəti və ziyalılığı ilə seçilən azərbaycanlı alim İsa Həbibbəyli yerinə yetirdi.

İnstitutumuza direktor təyin edildiyindən keçən altı il göstərdi ki, İsa Həbibbəyli həm də bacarıqlı elm təşkilatçısıdır.

Nə gizlədim, ilk vaxtlar Elmi və Dissertasiya şuralarında, müxtəlif tədbirlərdə görüləcək işlərdən, perspektiv planlardan coşqunluqla danışanda inanmağım gəlmirdi. Lakin vaxt keçdikcə İsa müəllimin dedikləri bir-bir yerinə yetdikcə özlüyümdə etiraf etməli oldum ki, bu fikrimdə yanılmışam. Nəydi məni bu etirafa vadar edən?!



Hər şeydən əvvəl onun gələcəkdə ədəbiyyatşünaslıq elmimizin ağırlığını çiynində daşıyacaq gənclərin inkişafına xüsusi qayğı göstərməsi. İndi çəkinmədən demək olar ki, Ədəbiyyat İnstitutunda yeni nəsil nüfuzlu söz sahibinə çevrilib. İnstitutda ədəbi prosesə ciddi şəkildə müdaxilə edən, onun istiqamətlənməsində fəal iştirak edən istedadlı nəsil yetişmişdir. İsa müəllimin "Azərbaycan" jurnalına (№10, 2018) verdiyi müsahibəsində göstərdiyi kimi, son iki ildə 9 nəfər doktorluq dissertasiyası müdafiə etmişdir. 2008-2015-ci illər arasında isə cəmi bir nəfər. Burada mühüm cəhət ondan ibarətdir ki, müdafiə edənlərin əksəriyyəti gənclər və orta nəslin nümayəndələridir.

Ədəbiyyat İnstitutunda həqiqi canlanma göz qabağındadır. Beynəlxalq səviyyəli tədbirlər, müşavirələr, yeni əsərlər və monoqrafiyaların təqdimatları, həmçinin ədəbi və elmi əlaqələr sahəsində dünyanın müxtəlif elm və təhsil ocaqları ilə əhəmiyyətli bağlantılar həyata keçirilir.

Xüsusi vurğulamaq lazımdır ki, İnstitutda klassik ənənələri yenidən dirçəltmək, yeni nəsil tədqiqatçılar yetişdirmək istiqamətində ardıcıl iş aparılır.

"Nizamişünaslıq şöbəsi" bərpa olunub, "Füzulişünaslıq sektoru" yaradılıb. "Erkən yeni dövr Azərbaycan ədəbiyyatı", "Azərbaycan mühacirət ədəbiyyatı", "Ədəbi tənqid", "Mətbuat tarixi və publisistika", "Azərbaycan-Asiya əlaqələri", "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri", "Uşaq ədəbiyyatı" şöbələri yaradılıb. Bunlar sırf elmi tədqiqat şöbələridir. Hələ biz Beynəlxalq əlaqələr, Təhsil, Nəşriyyat işi və proqnozlaşdırma, İctimaiyyətlə əlaqələr kimi köməkçi şöbələri demirik.

Akademik İsa Həbibbəylinin ideyası və təşkilatçılığı ilə institutda ən müasir avadanlıqla təchiz olunmuş Elektron akt zalı, Elektron oxu zalı, Elektron ekran fəaliyyət göstərir. Doktorantlara ingilis dili və ixtisas üzrə dərslər keçilir.

Yeddi cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin dördüncü cildi çap olunub və beşinci cildi bugünlərdə çapdan çıxacaq. Altıncı və yeddinci cildlər gələn ilə hazır olacaq.

On cildlik "Azərbaycan ədəbiyyatı tarixi" üzərində də iş gedir. Cildlər yeni dövrləşmə konsepsiyasına uyğun hazırlanır. Birinci cild tam hazırdır.

Ədəbi proses institutun kollektivinin diqqət mərkəzindədir. Ədəbi prosesə dair elmi müşavirələr keçirilir. Onlar, demək olar ki, bütün növ və janrlar üzrə aparılır. Nüfuzlu mətbuat orqanlarında bu müşavirələrin gedişatı işıqlandırılır. "Ədəbiyyat qəzeti" ədəbi-elmi müşavirələrin materiallarını səxavətlə çap edir.

2013-cü ildən başlamış institutun əməkdaşlarının illər üzrə işıq üzü görmüş monoqrafiya və məqalələrinin biblioqrafik göstəricisi nəşr olunur. İnstitut tarixində ilk təşəbbüs və təcrübə olan bu biblioqrafik göstərici İsa müəllimin çox doğru olaraq göstərdiyi kimi, Ədəbiyyat İnstitutunun elmi inkişafını pillə-pillə izləməyə imkan yaradıb.

Diqqətçəkən mühüm məsələlərdən biri də odur ki, yeni təyin edilmiş şöbə müdirləri də, direktor müavinləri də, Elmi və Dissertasiya şuralarının katibləri də institutda yetişmiş kadrlardır. Bu, onların əməyinə və elminə verilən qiymətdir, daha yaxşı işləmək üçün stimuldur.

İnstitutun 80 illik yubileyində xalq şairi Sabir Rüstəmxanlının İsa müəllim haqqında şair fəhmi ilə dediyi "Naxçıvan Dövlət Universiteti itirdi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu qazandı" fikri indi kollektivimiz tərəfindən daha yaxşı başa düşülür və həqiqət kimi qəbul edilir.

Alimin ədəbiyyatşünaslıq elmimizin inkişaf istiqamətlərinə, eləcə də poeziya və nəsrimizə dair mülahizələri, qənaətləri gənc ədəbiyyatşünasların yaradıcılıq yoluna işıq tutan aktual məsələlərdir.

Azərbaycan ədəbiyyatına dair dövrləşmə konsepsiyasını və inkişaf mərhələlərini akademik İsa Həbibbəyli hazırlayıb. Keçən il alim "525-ci qəzet"də ədəbiyyat konsepsiyasını oxuculara və tədqiqatçılara təqdim etmişdi. Müəllif ötən vaxt ərzində konsepsiyanı daha da təkmilləşdirmiş, "Azərbaycan ədəbiyyatının dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" adlı fundamental monoqrafiyasını çapa təqdim etmişdir.

Bu, ədəbiyyatşünaslıq elmimizə qiymətli töhfədir.

Seçilən, tanınan elə bir ədəbi sima, alim yoxdur ki, İsa müəllim onun yaradıcılığı haqqında səxavətlə düşüncələrini paylaşmasın, kitablara ön söz yazaraq müəllifləri sevindirməsin.

Mənim "Hüseyn Kürdoğlunun poetik dünyası" monoqrafiyama və Mədəniyyət Nazirliyinin layihəsi əsasında M.F.Axundov adına Milli Kitabxananın hazırlayıb nəşr etdirdiyi Biblioqrafiyama sanballı ön söz yazdığına görə burada fürsətdən istifadə edərək akademikə minnətdarlığımı bildirirəm.

Danılmaz həqiqətdir ki, insan çalışdığı sahədə zirvələr fəth edəndən, yaşa dolandan sonra həvəsi get-gedə azalır. İsa müəllimin Ədəbiyyat İnstitutunda işlədiyi müddətdə biz bunun əksini görmüşük. O, gənclik enerjisi və həvəsi ilə institutumuzda görülən böyük işlərə imza atır. Etiraf etməliyik ki, akademik ədəbiyyatşünaslıq elminin dərin qatlarına nüfuz etmiş, bu sahədə mötəbər söz sahibinə çevrilmişdir. Məni sevindirən odur ki, İsa müəllim Məmməd Arif, Həmid Araslı, Məmmədcəfər Cəfərov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Mirzağa Quluzadə, Yaşar Qarayev kimi ən fədailərindən, bənzərsiz alimlərimizdən dərs almış, mükəmməl məktəb keçmiş, müəllimləri sırasında layiqli yer tutmuşdur.

Bunu AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun görkəmli alim haqqında fikirlərindən də görmək olur: "...dayanıbdurmuş qatarı hərəkətə gətirmək bir hünərdirsə, onu zamanın sürət və tempi ilə yüksəltmək daha böyük hünərdir. Kardinal istiqamətdə düşünsək, bizdə ədəbiyyatşünaslıq platformasının daim üç sürət amili, yainki əyləci olmuşdur: ədəbiyyat tarixçiliyi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid. Birisinə ayaq basmaq kifayətdir ki, qatar platformadan tərpənsin. Akademik İsa Həbibbəyli hər üçünə eyni qədər önəm və sürət vermişdir".

Görkəmli alim, AMEA-nın vitse-prezidenti, ədəbiyyatşünaslıq elmimizin flaqmanı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli sahilsiz ümmana bənzər yaradıcılığı və elmi nailiyyətləri ilə Azərbaycanın hüdudları xaricində də yaxşı tanınır və yüksək qiymətləndirilir.